# RƏSUL RZA

*Seçilmiş əsərləri*

IV cild

# RƏSUL RZA

*Seçilmiş əsərləri*

BEŞ CİLDDƏ

## IV cild

Azf 301218

Azərbaycan Milli Kitabxanası

Şərq Qərb
East West

## FÜZULİ

*İlk sətirlər*

Şerinlə, fikrinlə doluyam, ustad!
Elə bil, ürəyim baharla dolub.
Gecə-gündüz yazıb, pozduğum sözlər
sanki gül-çiçəkdir, bir uşaq yolub.

Dəstə bağlamağı bacarmır ancaq.
Gah bunu, gah onu götürür, baxır.
Müşkülə düşmüşəm, qınama, ustad,
Adına bağlanır bu dəstə, axı!

Səni axtarıram sözlər içində.
Yox, adına layiq söz axtarıram
Dərdini, naləni duyan bir ürək,
möhnətini görən göz axtarıram.

Bilirəm el dərdi, vətən həsrəti
quru sazaq kimi səni kəsibdir.
Hər vətən deyəndə yaşarıb gözün,
dodağın titrəyib, dilin əsibdir.

Vətən bəzən dərdli, bəzən nəşəli.
düşünən, yaradan insan deməkdir.
Yüz çayı, yüz çölü, yüz dağı olsun,
İnsansız bir torpaq nəyə gərəkdir?!

Torpaqsız insan da yuvasız quşdur,
ömrün boranından necə qorunsun?
Qanadlı bir quş da, nə qədər uçsa,
axırda gərəkdir bir yerə qonsun.

Dağlar da görmüşəm, qayalar da mən,
başı buludlarda şəlalələr də.
Budaqları bıtraq bəhərli bağlar,
çölə yanğın salan tər lalələr də.
Bəs neçin yurdumun daşı, torpağı,
hər çöldən, çəməndən mənə əzizdir?
Nədəndir Arazın bulanıq suyu



duru göz yaşından mənə təmizdir?
Deyirlər, İraqdan ayrılmamısan,
ömrün Kərbəlada, Bağdadda keçib.
Əgər doğma idi sənə o yerlər,
niyə bütün ömrün fəryadda keçib?

Bir daş ürəkliyə könül vermisən,
Yandırıb qəlbini, külə döndərib,
Bəs necə hikmətdir yanan ürəkdən
çıxan hər sözünü gülə döndərib!

Yanıq nəğmələrin yayıldı elə,
Ümidin gözündə bir çənə döndü.
Bircə muradınla dönmədi dövran,
Muradına qarşı döndü, nə döndü!

Ürəyim şerinlə doludur, ustad!
Yazıb-pozduqlarım varaq-varaqdır
Bu çətin yollarda mənzil başına
məni məhəbbətin aparacaqdır.

## KƏDƏRLİ SEVİNC

Yollar, yollar, yollar uzun, kədərli...
Yüz fərsəx gedirsən bir kölgə yoxdur.
Dəvə ləpirindən, at dırnağından
yolların sinəsi oyuq-oyuqdur.

Məscidlər, türbələr, göy minarələr...
İstisi cəhənnəm, tozu bir bəla.
Orda məzlum Hüseyn, burda yazıq xalq.
Su-qan bahasına... budur Kərbəla!..

Hər zəvvar bir yarpaq bitirsə burda,
Hər tərəf yamyaşıl bir bağ olardı
Burda göz yaşını udmasa torpaq,
gurhagur çağlayan bulaq olardı.

Boz qutular kimi yan-yana evlər:
Ortalıqda İmam Hüseyn türbəsi.